

# Aydan Ay

***

...əllərimi çiçək bilib
kim idi dərən? - Bilmədim.
...köksümdə ağlar göy üzü!
Kim idi görən? - Bilmədim...

Köksümdə ağlar göy üzü...
Sənin yazın, qışın vardı.
Bu ev -eşik, bu dörd divar
unudardı, inciməzdim...
Sənin ki, yaddaşın vardı?!

Xatırlardın evimi də;
Damında yağış oynardı...
Lap saçlarımda dən,
alnımda qırış oynardı.

...əllərimi çiçək bilib
dərən doğum günüm - hanı?
Köksümdə ağlar göy üzü...
Sənin səsin, ünün hanı?

...adımı unudub
gedən doğum günüm,
adım böyüyüb,
addımlayır
sünbül üstə, dən üstə,
qanadlı bir qəm üstə.
...ağlayanda kiriməz,
bir naəlac şeir üstə.

...adımı unudub gedən doğum günüm,
barı, gözlərimlə sağollaşaydın.
Əllərimdən qabaq, adımdan qabaq
onlar görmüşdü səni.

Türküstan.- 2022.- 29 mart-4 aprel.- S.14.